*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 91-95* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.91*

# Cəmşid Əmirovun "Olub, olub" povesti detektiv nəsrin bədii nümunəsi kimi

**Seyidnisə Lətifli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: seyidnise.letifli@mail.ru

**Annotasiya.** Cəmiyyətdə cinayətin araşdırılmasına və cinayətkarların axtarışına maraq, qanunu pozanların cinayət məsuliyyətinə cəlb edilməsi ictimai xarakter daşımağa başladığı andan yaranıb. Sivilizasiyanın inkişafının başlanğıcında da oğrular, qatillər, fırıldaqçılar və bu kimi şəxslər təqib və cəzaya məruz qalırdılar. Cinayətin üstünü açmaq, onu törədənləri tapmaq və onların təqsirini sübut etmək həmişə asan olmayıb və seçilmişlərə xas olan analitik təfəkkür, ixtiraçılıq və müşahidəçilik tələb edir. Texnologiyanın inkişaf etməsi, sənayeləşmə və urbanizasiyanın artması və dünyada baş verən cinayət proseslərinin çoxalması ədəbiyyatda cinayət mövzularının yaranmasına zəmin yaratmışdır. Bu problem dövrün ədiblərini narahat etmiş və cinayət hadisələrinin qarşısının alınması üçün, cəmiyyətdə mövcud olan ziddiyyətli məqamların səbəblərini araşdıraraq öz əsərlərində əks etdirmişlər.
XX əsrin 50-60-cı illərində Azərbaycan ədəbiyyatında detektiv nəsr formalaşmışdır. Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə detektiv nəsrin yaradıcısı olan Cəmşid Əmirov özünəməxsus yaradıcılıq üslubuna malikdir. Görkəmli ədib Cəmşid Əmirovun "Olub, olub" povesti polis detektivi mövzusunda yazılmış maraqlı əsərdir. Məqalədə "Olub, olub" povestinin mövzu və ideyası, strukturu, detektiv nəsrin daxili tipologiyası araşdırılmışdır.
Cəmşid Əmirovun "Olub, olub" əsərinin detektiv nəsr cəhətdən təhlil obyektinə çevrilməsi, əsərin mövzu və ideyasının araşdırılması tədqiqatın yeniliyi hesab edilə bilər.
**Açar sözlər:** tipologiya, detektiv, povest, nəsr, xüsusiyyət

**Məqalə tarixçəsi:** göndərilib – 15.05.2023; qəbul edilib – 02.06.2023

# Jamshid Amirov's story "Olub, olub" as an artistic example of detective prose

**Seyidnise Letifli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: seyidnise.letifli@mail.ru

**Abstract.** Interest in the investigation of crime and the search for criminals arose in the society from the moment when the prosecution of lawbreakers began to have a public character. Even at the beginning of the development of civilization, thieves, murderers, fraudsters and the like were persecuted and punished. Solving the crime, finding the perpetrators and proving their guilt was not always easy and required analytical thinking, ingenuity and observation typical of the chosen ones. The development of technology, the increase in industrialization and urbanization, and the increase in criminal processes in the world have created the basis for the emergence of criminal themes in

literature. This problem worried the writers of the time, and in order to prevent criminal incidents, they investigated the causes of the conflicting points in the society and reflected them in their works.
In the 50s and 60s of the 20th century, detective prose was formed in Azerbaijani literature. Jamshid Amirov, the creator of detective prose for the first time in the history of Azerbaijani literature, has a unique creative style. The famous writer Jamshid Amirov's short story "Olub, olub" is an interesting work written on the theme of a police detective. The article also examines the subject and idea, structure, internal typology of detective prose of the "Olub, olub" narrative.
Turning Jamshid Amirov's work "Olub, olub" into an object of detective prose analysis, and examining the subject and idea of the work can be considered a novelty of the research.
**Keywords:** typology, detective, narrative, prose, feature

**Article history:** received ‒ 15.05.2023; accepted – 02.06.2023

## Giriş / *Introduction*

Bəşəriyyət müxtəlif sivilizasiyalardan keçsə də, texnologiya sürətlə inkişaf etsə də, cinayət faktoru daim dünyanın ən qaranlıq guşələrində mövcud olmuşdur. Pul, qısqanclıq, hakimiyyət üzərində gedən çaxnaşmalar, qəzəblərinə məğlub olan insanlar, bəşəriyyətin bütün dövrlərində rast gəlinən cinayətə sürükləyən vacib faktorlardır. Detektiv nəsr müəmmalı bir hadisənin dəqiq hallarının məntiqi şəkildə təhlil olunaraq tədricən açılmasına həsr olunur. Nəsrin əsas əlaməti sirri ehtiva edən bir süjet üzərində qurulmasıdır ki, bu səbəbdən də onun əsas iki elementi sirr və qətldir. Hər bir ictimai-tarixi formasiya ideoloji və ictimai münasibətləri, estetik üstünlükləri doğurmuşdur ki, bu da öz növbəsində sənətdə müəyyən formasiyaların yaranması üçün zəmin yaradırdı. Kapitalizm özündən əvvəl yaranan bütün janr formalarını miras aldı, lakin onlara ümumi bir baxış verdi, bəzilərini lazımsız hesab edərək atdı, digərlərini qətiyyətlə dəyişdirdi və digərlərini ilk dəfə təqdim etdi. Kapitalizmin yaratdığı bu növlərdən biri də bir çox ədəbi formaların kəsişməsindən yaranan, arxaik janrların xüsusiyyətlərini yeni strukturlarla birləşdirən detektiv hekayə idi [5, s.30]. Detektiv peşəkar təcrübədən və ya xüsusi müşahidə qabiliyyətindən istifadə edərək tədqiqat aparır və bununla da cinayətin hallarını analitik şəkildə yenidən qurur, cinayətkarı müəyyən edir və müəyyən ideyalar naminə xeyirin qalib gəlməsinə səbəb olur. Bu məqalədə biz detektiv nəsrin tipologiyasından irəli gələn mühüm struktur və funksional xüsusiyyətləri araşdıracağıq.

## Əsas hissə / *Main Part*

Cəmşid Əmirovun detektiv əsərləri dövrünün mühüm hadisəsi idi. Bunun səbəbi ondan ibarət idi ki, o dövrdə yazılmış əsərlərdə sosial mövzular qabarıq deyildi. Cəmşid Əmirov isə əsərlərində bütün hadisələri çılpaqlığı ilə təsvir etmiş və dövrün bir sıra mühüm problemlərini qaldırmışdır. Azərbaycan ədəbiyyatının görkəmli ədibi olan Cəmşid Əmirov "Olub, olub" povestində cinayətkar tərəfindən törədilmiş silsilə qarətləri, cinayəti təsvir etmiş və polis əməkdaşlarının cinayətkarın axtarılması zamanı aparılmış istintaq prosesində göstərdikləri hünəri, çevikliyi, şücaəti əks etdirmişdir. Əsərdə iki süjet xətti özünü göstərir. Birinci süjet xətti Hüseynbala Cəfərquluyevin müxtəlif şəxsiyyət vəsiqələrindən istifadə edərək, gənc qızları qarət etməsi, ikinci süjet xəttində isə cinayətkar Hüseynbala Cəfərquluyevin kolxoz sədri Sərdar Məcidovu və ailəsini öldürməsi və polis işçiləri tərəfindən yaxalanaraq istintaqa cəlb olunması yer almışdır.

Macar ədəbiyyatşünası Tibor Kestxeyn "Detektivin anatomiyası" adlı kitabında detektivin əsasının formativ tapmacalarla əlaqəli olması

fikrini irəli sürmüşdür. Məhz tapmacalar insan beynini hərtərəfli düşündürə bilməsi ən çox istifadə olunan janrlardan biri sayılmışdır. Detektiv əsərin əsas üstünlüyü tərkibində mürəkkəb və maraqlı tapmacanın olmasıdır, tapmacanın aşılması əsərin inkişafının əsas hərəkətverici qüvvəsidir. Bu xüsusiyyət barədə polşalı ədəbiyyatşünas Yerji Sivierski qeyd etmişdir ki, detektiv hekayənin çox oxunulmasının səbəbi onun tərkibində olan sirdən qaynaqlanır. Əgər biz gələcək oxucuya haqqında danışdığımız əhvalatın əsas intriqasını versək, onun üçün sirrin açılmasını maraqsızlaşdıra bilərik. Buna görə də oxucu detektivlə bərabər imkanlara malik olmalı, məlumatlar aydın şəkildə verilməlidir. Bu mövzuda yazılmış əsərlərdə oxucu və detektiv rəqib, müəllif isə hakimdir. Detektivdə məntiqi üsuldan istifadə etməklə həqiqətə çatmaq lazımdır, yalnız məntiqi nəticə ilə təsvir olunan reallıqlar qanunauyğunluqla yekunlaşa bilər. Dünya nə qədər nizamlıdırsa, onun məntiqi təhlili üçün bir o qədər də imkan var. Detektiv və elmi ədəbiyyatın ilk təfsirçisi, detektiv romanın mənşəyi, "Detektiv roman və elmi fikrin təsiri haqqında" tezisin müəllifi Regis Messac məntiqi metodu qədim və orta əsrlər tarixində təfərrüatlı şəkildə izlədikdən sonra qərara gəlmişdir ki, induktiv məntiq təkzibedilməz müddəalardan və ya deduktiv məntiqin metodu olan aksiomadan nəticə çıxarmaq fərqli olaraq emprik dəlilərdən gələn nəticələrin nəticəsinə əsaslanır.

Detektiv əsərin mahiyyətində ciddi üslub və ümumi əhval-ruhiyyə vəhdəti olmalıdır. İstintaq özünəməxsus metodologiyaya sahib olmalı və elmi cəhətdən əsaslandırılmalıdır. Cəmşid Əmirovun digər əsərlərində olduğu kimi, "Olub, olub" povestində də cinayətkarın yaxalanması zamanı aparılan istintaq işi zəncirvari və məntiqi şəkildə irəliləyir. Povestdə janrın tələblərindən irəli gələn səbəblərdəndir ki, digər əsərlərində mövcud olan mürəkkəb istintaq prosesi təsvir edilməmişdir. İsveçrəli narratoloq Rafael Baroniyə povest gərginliyinin əsas rejiminin maraq və şübhə olduğunu qeyd edirdi [1, s.21]. Gizlilik vəziyyətində təsvir olunan povest həll tələb edir, bu zaman oxucu kimin qalib gələcəyini bilmək istəyir, müəllif bu zaman bəzi hadisələri strateji olaraq təxirə salır oxucunu şübhə içində saxlayır. İkinci halda maraq effekti, qətlin kim tərəfindən və necə törədilib sualları ətrafında yaranır. Povestdə də bu proses Hüseynbala Cəfərquluyevin Sərdar Məcidov və ailəsinin cinayətində iştirakının olub-olmaması ilə bağlı yaranan suallar oxucuda şübhə hissinin yaranmasına səbəb olur.

Yazıçının əsərdə yaratmış olduğu cinayətkar obrazı dəqiq, məntiqli və ağıllıdır. İstintaq zamanı törətmiş olduğu cinayətin izlərini öz üzərindən uzaqlaşdırmaq üçün məntiqi şəkildə bir plan cızır, polis işçilərinin qarşısına dəlil və sübutlar gətirir. Şəxsiyyət vəsiqəsi dəyişdirmək detektiv nəsrin xarakterik xüsusiyyətlərindəndir. Məhz bunun vasitəsilə cəsus özünə aid olmayan sənədləri özününküləşdirərək, şəxsiyyətini asanlıqla dəyişib izini itirir. Müəllif bunun vasitəsilə yaratmış olduğu cəsus obrazının müxtəlif məkanlara girməsinə və məlumat toplamasına zəmin yaradır. Povestdə cinayətkar Hüseynbala Cəfərquluyev tələbə Natalya Kryuçkovanı qarət edərkən nazir Firdovsi Zərbəyarovun, Qalina Nikitiçna Yermolayevanı aldadarkən zabit Adil Hənifəyevin kimliklərindən istifadə etmiş, Layma Laqunaviçus qarət edərkən isə ticarətçi Mikayıl Petrosyan olaraq özünü tanıtmışdır. İkinci süjetdə isə izini itirmək üçün "Qızıl Şərq" kolxozunda çalışan Qədəmşah Tapdıq oğlunun sənədlərini oğurlamış, onun yerinə briqadir vəzifəsinə işə düzəlmişdir.

Detektiv əsərlər xüsusi konstruksiya əsasında qurulur. Tədqiqatçı N.N.Volski "Агадочная логика Детектив как модель диалектического мышления" adlı məqaləsində yazırdı: "Düşünürəm ki, detektiv hekayə mürəkkəb quruluşa malikdir və hər bir yaxşı detektiv hekayə iki xətt üzrə qurulur: bir xətt tapmaca və onunla əlaqəli olan, digəri isə xüsusi sirli olmayan süjet elementləri ilə formalaşır. Tapmacanı çıxarsanız, əsər detektiv olmaqdan çıxar, ikinci sətri götürsəniz bu zaman əsər çılpaq süjetə çevrilər. Detektiv nəsr bu elementlərin hər ikisinin vəhdətidir" [4, s.21]. "Olub, olub" povestində müəllifin yaratmış olduğu sirli məqamlarla yanaşı, xüsusi təsvirlər mövcuddur ki, məsələn, obrazın xarici quruluşu, otağın təsviri və s. kimi detallar ilk dəfə oxucu üçün mənasız görsənsə belə, müəllif bunu yaratmaqla həm bədii əsərə rəng qatır, həm də gələcəkdə bu detallardan oxucu istintaqın gedişində istifadə edərək məsələnin

həllini aydınlaşdırmış olur. Bir sözlə, müəllifin niyyətinin mahiyyətini aşkara çıxarmağa, tədqiqata cəlb olunan əsərin obrazlarının bütöv vahid kimi inkişaf etdirilməsinə kömək edir. Yazıçı detektiv əsərlərində bu vəhdəti balansda saxlayır.

Detektiv nəsr çoxşaxəlidir və əsərin konsepsiyasına uyğunluğu, dərinliyi ilə seçilir. Həmçinin materiala nüfuzetmə, bilik və həyat təcrübəsi, mənəvi dəyər, məqsəd aydınlığı və müəllifin bacarığı ilə xarakterizə edilir. Bu mövzuda yazılmış əsərlərin təməl qatına xeyir və şərin mübarizəsi hopmuşdur və mübarizədə xeyir qalib gəlir. Cinayətkarlar sonda ədalət məhkəməsi qarşısında cəzalandırılırlar. Dedektiv nəsr humanist ənənələrdəki fikirləri, insan şəxsiyyəti problemini, şərlə mübarizədə mənəvi formalaşmasını açmaq üçün ən yaxşı formadır, çünki buradakı şər yalnız qanunları deyil, cəmiyyətin, eyni zamanda bəşəriyyətin əsrlər boyu yaşanan mənəvi normaların ən dəhşətlisi – cinayətə görə kobud şəkildə pozuntuların spesifik və ən neqativ xarakterini alır. Bu da detektiv nəsrin başlıca prinsiplərindən biri olub, ədalətin həmişə qalib gələcəyindən xəbər verir. “Olub, olub” povestinin sonunda da cinayətkar, polis işçiləri tərəfindən Sərvinaz Haşımovanın şahidliyi ilə yaxalanır, cəzalandırılır.

“Olub, olub” povestində müəllif müxtəlif cinayətlərin motivlərinin dərinliyini, sosial həyatın mexanizmlərindən, cəmiyyət və insan ehtiraslarının törətmiş olduğu mənfiliklər və qəhrəmanları əhatə edən reallıqlardan bəhs etmişdir. Əsər povest janrının tələblərinə uyğun olaraq hadisələrin və obrazların çoxşaxəliliyi, mürəkkəb və dəyişkən situasiyaların mövcudluğunun təsviri ilə xarakterizə edilir.

## Nəticə / *Conclusion*

Aparılan tədqiqat nəticəsində Cəmşid Əmirovun “Olub, olub” povestində detektiv nəsrin daxili tipologiyasına uyğun gələn xüsusiyyətləri, əsərin mövzu və ideyası, strukturu kimi məsələləri aydınlaşdırmağa çalışdıq. Müəllifin “Olub, olub” povestində cinayətkarlıqla mübarizənin ən vacib problemi həll olunmuş, hər bir personaj xüsusi və özünəməxsus şəkildə xarakterizə edilmişdir. Polis detektivi mövzusunda yazılmış diqqətəlayiq əsərlərdən biridir. Tədqiqat işinin üstünlüyü “Olub, Olub” povestinin ilk dəfə detektiv nəsr nümunəsi kimi tədqiqata cəlb olunmağıdır.

## Ədəbiyyat / *References*

1. Baroni, R. La Tension narrative: suspense, curiosité et surprise. – Seuil, 2007.
2. Əmirov, C. Şəhər yatarkən: Povestlər. – Bakı: Yazıçı, 1982.
3. Бекузарова, Ю.Ю. “Осмысление детектива как жанрового канона в литературоведении XX века”. Текст и гуманитарный дискурс: вчера и сегодня, материалы (2008).
4. Вольский, Н.Н. “Загадочная логика. Детектив как модель диалектического мышления” Легкое чтение. Работы по теории и истории детективного жанра. – Новосибирск, (2006).
5. Маркулан, Янина. “Детектив. Что это такое? Морфология жанра” Янина Маркулан. Зарубежный кинодетектив. Опыты изучения одного из жанров буржуазной массовой культуры. – Л.: Искусство (1975).

# Рассказ Джамшида Амирова “Олуб, олуб” как художественный образец детективной прозы

**Сайидниса Латифли**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: seyidnise.letifli@mail.ru

**Резюме.** Интерес к расследованию преступлений и розыску преступников возник в обществе с того момента, когда преследование правонарушителей стало носить публичный характер. Еще в начале развития цивилизации воры, убийцы, мошенники и им подобные преследовались и наказывались. Раскрыть преступление, найти виновных и доказать их вину было не всегда просто и требовало аналитического мышления, смекалки и наблюдательности, свойственных избранным. Развитие техники, усиление индустриализации и урбанизации, усиление криминальных процессов в мире создали основу для возникновения криминальной тематики в литературе. Эта проблема беспокоила писателей того времени, и в целях предотвращения криминальных инцидентов они исследовали причины возникновения конфликтных моментов в обществе и отражали их в своих произведениях.

В 50-х и 60-х годах 20 века в азербайджанской литературе сформировалась детективная проза. Джамшид Амиров, создатель впервые в истории азербайджанской литературы детективной прозы, обладает уникальным творческим почерком. Рассказ известного писателя Джамшида Амирова «Олуб, олуб» – интересное произведение, написанное на тему полицейского сыщика. В статье также рассматриваются предмет и идея, структура, внутренняя типология детективной прозы повести «Олуб, олуб».

Новизной исследования можно считать превращение произведения Джамшида Амирова «Олуб, олуб» в объект анализа детективной прозы, рассмотрение предмета и идеи произведения.

**Ключевые слова:** типология, детектив, повествование, проза, почерк